# turingi BTK

**turingi BTK** – ÜZVİ BİOLOJİ İNSEKTİSİD xüsusi bio-aktiv mikrobioloji preparat zərərvericilərin məhv edilməsi üçün *Bacillus turingiensis var. kurstaki* bakteriyalarla xazırlanıb. Bu bio-insektisid maye formulu - bakteriya sporlarıyla δ-endotoksinlər kompleksidir. δ-endotoksinlər BTK bakteriyanın sitoplazmasında yerləşir. **turingi BTK**, zərərvericilərə qarşı nəzarət üçün suda rahat qarışdırılır, yüksək keyfiyyətli bio-insektisid tərkibidir. *Bacillus turingiensis var. kurstaki* sporları və xüsusi δ-endotoksin kristalları zərərvericinin orqanizminə yarpaqla protoksin kimi düşüb və onların mədə-bağırsaq sistemində toksikoz yaradmaqla zərərvericini öldürür. Kənd təsərrüfatı və bağ, meyvə ağacları, tərəvəzlər, dənli, dekorativ və qalan bütün bitkilər üçün istifadə edilə bilər.

**turingi BTK** balanslaşdırılmış miqdarda mikroorqanizmlərin əlavə edilməsi ilə xüsusi texnoloqiya ilə hazırlanır. Kənd təsərrüfatında istifadə edilən bütün kimyəvi və mineral gübrələrlə uyğun gəlir. Bütün bitkilərdə istifadə etmək olar.

Fitotoksik deyil. İnsanlar, balıqlar, heyvanlar, arılar, bütün faydalı həşaratlar və entomofaqlar üçün zərərsizdir. **Tut və palıd ipəkqurduna qarşı toksikdir!!!**

*Üzvi istehsalda istifadə üçün dünya üzrə təsdiq edilmişdir.*

**TƏRKİBİ:**
- *Bacillus turingiensis var. kurstaki* ümumi mikrop sayı (KƏGV/sm$^3$): min. 1.0x10$^7$,
- kristalik δ-endotoksinlər,
- N, P, K, Ca, Mg, Mn, S mineral duzların və şəkər melasın – iz qalıqları, qalanı su.

**İSTİFADƏ QAYDALARI** (püskurtmək/çiləmək (sprey) ilə tətbiq olunur):

200 gram şəkər tozunu 200 litr ılıq suda həll edin və həmin məhlulun içinə 100 gram **turingi BTK**-nı əlavə edin və qarışdırın. 3 saatdan sonra alınan məhlulu tədbiq edin. (zərərvericilərdən asılı olaraq, adətən zərərvericilər 2-6 günə məhv olur).

**QEYD:** ən yaxşı nəticə almaq üçün hər 10 gündən bir istifadə edin.

**DİQQƏT:** Püskürtmə zamanı 3.4 atmosfer təzyiqi (50 psi) aşmayın. Su ilə qarışdıqdan sonra 8 saat ərzində istifadəni tamamlayın. Istifadə edərkən tibbi maska və gözlük istifadə edin. Preparatı dondurmayın.

**turingi BTK**-nın təbii çöküntüsü vardır, istifadədən qabaq və istifadə zamanı qarışdırmaq tələb olunur.

**Saxlama qaydaları:**
Quru, sərin və qorunan bir yerdə + 5°C-dən + 10°C-yə qədər olan temperaturda, birbaşa günəş işığına məruz qalmayan bir yerdə saxlayın. Xüsusi nəqliyyat tələbləri lazımdır - temperatur aralığı +5 ilə + 10°C arasında olan termo konteyner. +15°C temperaturda maximum 2 saat saxlanıla bilər.

**Yararlılıq müddəti:**
- Açılmamış orijinal qablaşdırmada 12 ay +5°C-dən +10°C-yə qədər olan temperaturda saxlayın.
- Su ilə qarışıq: 20-25°C-də qaranlıq bir otaqda saxlandıqda maksimum 8 saat.

**Təsdiq**: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Aqrokompleks"in İAS akkreditasiyalı Laboratoriyası.

**Qablaşma:** 1L, 5L, 10L, 20L plastik qab.